# DAŞLARA ƏBƏDİ HƏYAT VERƏN SƏNƏTKAR

*Görkəmli heykəltəraş, xalq rəssamı, akademik Ömər Eldarovun 85 yaşı tamam oldu*



İnsanların əksəriyyəti daşı canlı qəbul etmir, hərəkətsizliyi, sərtliyi, insan ruhunun duyulmadığı şəraiti və hal-vəziyyəti bəzən daşla müqayisə edirlər.

Lakin bilən bilir ki, ətrafa özünəməxsus baxışa, fitri istedada malik insanlar, daha doğrusu, heykəltəraşlar belə deyillər. Onlar daşın bətnində yatan, heç kimin duya bilmədiyi enerjini nəinki hiss edir, hətta onu üzə çıxarmağa müvəffəq olurlar. Şübhəsiz, bu müvəffəqiyyət heykəltəraşlıq sənətinin tələbinə görə sənətkarın əbədiləşdirəcəyi anı düzgün seçməsindən, keçmişi və gələcəyi, şəxsiyyəti və zamanın izini həmin anda təcəssüm etdirmək, əsərinə "ruh" vermək bacarığından asılıdır. Təsadüfi deyildir ki, sənət tarixində şairlərin, bəstəkarların, rəssamların imzası çox olsa da, böyük heykəltəraşların imzası tək-təkdir.

Adı dünya miqyaslı sənətkarlarla bir sırada çəkilən, görkəmli heykəltəraş, Xalq Rəssamı, "İstiqlal" və "Şərəf" ordenli, akademik, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov belə nadir sənətkarlardandır. O, 1927-ci ildə dünyaya göz açmışdır. Azərbaycan Rəssamlıq Məktəbində, sonra isə Rusiyanın Leninqrad (indiki Sankt-Peterburq) şəhərində İ.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun heykəltəraşlıq fakültəsində təhsil almış Ömər Eldarov gənc yaşlarından yerli və beynəlxalq sərgilərdə fəal iştirak etmişdir.

Bütün mənalı ömrü boyu Ömər Eldarov yaradıcılıqla yanaşı, həm də Azərbaycanın ictimai və mədəni həyatının fəal iştirakçısı olmuşdur. Təsadüfi deyildir ki, o, 1958-1968-cı illərdə Azərbaycan Rəssamlar İttifaqının katibliyinə üzv seçilmiş, 1970-ci ildə isə SSRİ Rəssamlıq Akademiyasının heykəltəraşlıq üzrə Bakıdakı yaradıcılıq emalatxanasının rəhbəri təyin edilmişdir. 1995-ci ildə isə müstəqil Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilən Ömər Eldarov parlamentdəki 5 illik fəaliyyəti dövründə xalqın elçisi vəzifəsinin öhdəsindən layiqincə gəlmişdir.

Akademik Ömər Eldarovun zəngin yaradıcılıq bioqrafiyasında Natəvanın, Məhəmməd Füzulinin, Hüseyn Cavidin, Sədrəddin Ayninin, İbn Sinanın, İhsan Doğramacının heykəllərinin, Azərbaycanın görkəmli oftalmoloq alimi, akademik Zərifə xanım Əliyevanın, ümummilli lider Heydər Əliyevin, Üzeyir Hacıbəylinin, Səttar Bəhlulzadənin, Süleyman Rəhimovun, Vaqif Mustafazadənin, Niyazinin, Aida İmanquliyevanın, Ziya Bünyadovun qəbirüstü abidələrinin yüksək sənətkarlıq və peşəkarlıqla hazırlanmasını və s. qeyd etmək olar. Bundan əlavə, sənətkar bir sıra kamera xarakterli, kiçik həcmli əsərlərin müəllifidir. Bu qəbildən olan "Qızım Lalənin portreti", "Oğlum Müslümün portreti", "Analıq", "İlin dörd fəsli", "Bacılar" əsərləri, Nəsiri Xosrovun



və Rabindranat Taqorun heykəl portretləri müxtəlif vaxtlarda nüfuzlu respublika və beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilmişdir.

Ömər Eldarovun əsərlərini seyr etdikcə yaratdığı obrazların aurasını duymamaq mümkün deyil. Əslində isə belə "canlılıq" zəngin yaradıcılıq təxəyyülünün məhsulu olan və tişəsinin nəhayətsiz fantaziyası ilə "ikinci həyat" verdiyi hər bir qəhrəmanının yaşadığı dövrü və mühiti hərtərəfli öyrənmiş ustad sənətkarın öz tükənməz yaradıcılıq enerjisini daşlara köçürməsindən qaynaqlanır.

Akademik Ömər Eldarovun yaradıcılığında obrazların psixoloji aləminin, fərdi keyfiyyətlərinin təcəssümü, kompozisiyanın tamlığı diqqəti xüsusilə cəlb edir. Müəllifin dünyaya romantik münasibətinin və yüksək sənətkarlığının ifadəsi olan Natəvanın heykəlində müsəlman qadınının, eyni zamanda, lirik şairin, müvafiq dövrün və mühitin vəhdəti böyük məha-



rətlə əks etdirilmişdir. Obrazın zahiri görkəmi, geyimi, barmaqlarının vəziyyəti, bir sözlə sənətkarın gözə çarpdırdığı hər bir şey Natəvanın romantik qəlbini və milli keyfiyyətlərini canlandırmaqdadır.

Görkəmli heykəltəraşın yaradıcılığında xalqımızın fəlsəfi fikri, yaradıcı təfəkkürü ən yüksək səviyyədə ifadə edilmişdir. Onun görkəmli sənətkar Tokay Məmmədov ilə birgə yaratdığı Məhəmməd Füzulinin abidəsində dərd çəkən, düşünən insan və poetik ruhun vəhdəti öz monumental ifadəsini tapmışdır. Sağ əlini çənəsinə söykəmiş, sol əlində kitab tutan Füzulinin surəti tamaşaçını hər dəfə "sehrləyir".

Akademik Ömər Eldarov kədərin, düşüncənin xeyli dərəcədə fərqli bir obrazını görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın abidəsində yaratmışdır. Həzin kədərin gözəllik və zərifliklə vəhdətdə təcəssüm tapdığı abidə təkcə Zərifə Əliyevanın deyil, ümumiyyətlə, zərifliyin əks olunduğu kamil bir sənət əsəridir.

Heykəltəraşlıqda psixoloji məqamları ifadə etmək çətin olsa da, Ömər Eldarov obrazların ömürlərinin ən mühüm məqamlarını tamaşaçıya böyük müvəffəqiyyətlə təqdim etməyi bacaran nadir sənətkarlardandır. Bu baxımdan ulu öndər Heydər Əliyevin abidələri görkəmli heykəltəraşın yaradıcılığında xüsusi yer tutur. O, ulu öndərin Naxçıvanda, Bakıda və digər şəhərlərdə ucaldılmış neçə-neçə abidəsinin müəllifidir. Fəxri xiyabanda ümummilli liderin məzarı üzərində ucaldılan abidə kompleksi isə yüksək bədii-estetik keyfiyyətləri yaşadan sənət nümunəsidir. Sənətkar ulu öndərin obrazını Azərbaycan Respublikasının xəritəsi fonunda təsvir etməklə, əslində, əsrarəngiz bir abidə-kompleksin yaradılmasına nail olmuşdur.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO–nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Ömər Eldarov tərəfindən hazırlanmış "İlahi Muza - Azərbaycan muğamının hamisi" adlı abidəsi elit mənzərəli Niagara on the Lake şəhərinin (Kanadanın birinci paytaxtı) təmtəraqlı malikanələrindən birini bəzəyir. Təsadüfi deyildir ki, Kanada parlamentinin deputatı Monte Kvinter bu əsəri "zəmanəmizin təsviri sənət şedevri" adlandırmışdır.

Akademik Ömər Eldarovun yaradıcılığında Azərbaycan və dünya heykəltəraşlıq məktəbinin ən mükəmməl elementləri əksini tapır. Onun əsərlərinin ölkəmizin hüdudlarından kənarlarda uğur qazanması Ömər Eldarov sənətinin millisiklə yanaşı, bəşəriliyini, geniş məkanda və bütün zamanlarda qəbul olunduğunu bir daha təsdiqləyir.

Ustad sənətkarın yaradıcılıq dünyası xalqımızın sonsuz məhəbbətini qazanmış, dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. Bu il dekabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Ömər Eldarov daha bir ali dövlət mükafa-



tı - "Şərəf" ordeni ilə təltif edilmişdir.

Dəfələrlə fəxri adlara və müxtəlif mükafatlara layiq görülən akademik Ömər Eldarovun dekabrın 21-də 85 yaşı tamam oldu. Ömrünün müdriklik çağını yaşayan ustad sənətkar bu gün də tükənməz enerji ilə yeni-yeni əsərlər yaratmaqdadır. Ustad sənətkarımızı 85 illik yubileyi münasibətilə ürəkdən təbrik edir və ona həyatda ən şirin nemət olan cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Gözəl Ağayeva,***
***AzərTAc-ın müxbiri***